**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**QAZAX FİLİALI**

**TƏSDİQ EDİRƏM**

**Direktor ________ A.S.Rüstəmov**

**« 15 » « yanvar » 2024-cü il**

Bakı Dövlət Universiteti Qazax filialı Direktorluğunun " 30 " " dekabr " 2022-ci il tarixli İclasının (Protokol №15) qərarı ilə qəbul edilmişdir.

Bakı Dövlət Universiteti Qazax filialı Direktorluğunun " 15 " " yanvar " 2024-ci il tarixli İclasının (Protokol N 1) qərarı ilə düzəliş və əlavələr etməklə təkmilləşdirilmiş yeni redaktədə qəbul edilmişdir.

# STRATEJİ İNKİŞAF PLANI

**QAZAX-2023**

BAKI DÖVLƏT UNİVERSİTETİ
QAZAX FİLİALI

# STRATEJİ İNKİŞAF PLANI

## 2022-2030

QAZAX-2023

## MÜNDƏRİCAT

1. Giriş
2. Filial haqqında qısa xülasə
3. "SWOT" ("GZİT") təhlili
4. "PEST" modelinə əsaslanan təhlil
5. "Porterin 5 güc" modelinə əsaslanan təhlil
6. Maraqlı tərəflərin Xəritələnməsi ilə matris təhlili
7. Strateji inkişaf planının istiqamətləri və hədəflər

# 1. GİRİŞ

Bakı Dövlət Universitetinin Qazax filialının 2022-2030-cu illər üçün Strateji İnkişaf Planı bütövlükdə Filial, həmçinin onun struktur bölmələri üçün inkişaf prioritetlərinin çərçivəsini müəyyənləşdirir, tələbələr və akademik heyət arasında qarşılıqlı əlaqələrin dərinləşməsini və müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşma və vasitələri təqdim edir. Plan, həmçinin Filialda tədrisin və elmi fəaliyyətin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi, qlobal elm-təhsil məkanına inteqrasiya, yüksəkixtisaslı insan kapitalına olan tələbatın ödənilməsi, habelə ali təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılması mexanizmlərini özündə əks etdirir.

Plan aşağıda qeyd olunan əsas fəaliyyət istiqamətlərini əhatə edir:

- Təhsil;
- Elmi tədqiqatlar;
- İnnovasiyalar;
- Beynəlmiləlləşmə;
- Sosiallıq.

BDU-da elm və təhsil üzrə əsas prioritetlər (SİP) nəzərə alınmaqla hazırlanmış bu sənəd BDU Qazax filialının 2022-2030-cü illər üzrə İnkişaf strategiyasını əhatə edir. Strategiyanın hazırlanması zamanı Elm və Təhsil sahələri üzrə Azərbaycan Respublikasının qanunları, müvafiq Dövlət proqramları, Azərbaycan Respublikasının Prezidentinin, Nazirlər kabinetinin, Elm və Təhsil Nazirliyinin fərman və sərəncamları, qərarları kimi hüquqi-normativ sənədlərdən istifadə olunmuşdur.

SİP-in hazırlanmasında “SWOT” (“GZİT”), “PEST” və “Porterin 5 güc” kimi təhlil modellərindən istifadə olunmuşdur ki, bu da həmin strategiyanın reallaşdırılması istiqamətində əhəmiyyətli olacaqdır. Bununla yanaşı, Maraqlı tərəflərin Xəritələnməsi ilə matris təhlilinin aparılması da Strateji İnkişaf Planında qeyd olunmuş hədəflərə çatmaq üçün xüsusi rola malikdir.

**BDU-nun Qazax filialının missiyası** elm, təhsil və istehsalatın vəhdətini təşkil etməklə, qloballaşan dünyanın çağırışlarına uyğun olaraq təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Missiyanın əsasında maraqlı tərəflərin tələblərinə cavab verən, innovativ texnologiyaları bilən, pedaqoji və sosial-iqtisadi problemləri həll etməyi bacaran rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması dayanır.

**Filialın şüarı:** “Keyfiyyətli təhsil – uğurlu gələcəyə aparan yoldur.”

## GƏLƏCƏYƏ BAXIŞ

Ölkənin və regionun təhsil və elm sahəsində müasir standartlara cavab verən aparıcı universitetləri sırasına daxil olmaq.

## ƏSAS DƏYƏRLƏR

- Şəffaflıq;
- Kollegiallıq;
- Sosial məsuliyyət;
- Peşəkarlıq;
- Kreativlik.

## 2. BDU-nun Qazax filialı haqqında qısa xülasə

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax və Zaqatala filialları barədə Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il iyul ayının 1-dən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı kimi ali təhsil sektorunda fəaliyyət göstərməyə başlamışdır. 2016/2017-ci tədris ilində BDU-nun Qazax filialı olaraq ilk tələbə qəbulu həyata keçirilmişdir.

Hazırda Filialda Bakalavriat təhsil səviyyəsində 16 ixtisas (onlardan dördündə həm də qiyabi təhsilalma forması üzrə), Magistratura təhsil səviyyəsində 8 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

| | **Bakalavriat təhsil səviyyəsi - İxtisaslar** |
|---|---|
| 1 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| 2 | Fizika müəllimliyi |
| 3 | Riyaziyyat və informatika müəllimliyi |
| 4 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə) |
| 5 | İbtidai sinif müəllimliyi |
| 6 | İnformatika müəllimliyi |
| 7 | Kimya və biologiya müəllimliyi |
| 8 | Məktəbəqədər təhsil |
| 9 | Riyaziyyat müəllimliyi |
| 10 | Tarix müəllimliyi |
| 11 | Tarix və coğrafiya müəllimliyi |
| 12 | Təhsildə sosial-psixoloji xidmət |
| 13 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) (əyani və qiyabi) |
| 14 | Tarix (əyani və qiyabi) |
| 15 | Turizm işinin təşkili (əyani və qiyabi) |
| 16 | Sosial iş (əyani və qiyabi) |

| | **Magistratura təhsil səviyyəsi - İxtisas və İxtisaslaşmalar** | |
|---|---|---|
| 1 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası |
| 2 | Riyaziyyat müəllimliyi | Riyaziyyat fənninin tədrisi metodikası və metodologiyası |
| 3 | Tarix müəllimliyi | Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| 4 | İnformatika müəllimliyi | İnformatika fənninin tədrisi metodikası və metodologiyası |
| 5 | İbtidai sinif müəllimliyi | İbtidai sinifdə tədrisin metodika və metodologiyası |
| 6 | Məktəbəqədər təlim və tərbiyə | Məktəbəqədər təlim, tərbiyənin metodika və metodologiyası |
| 7 | Sosial iş | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş |
| 8 | Turizm və otelçilik | Turizm işi |

BDU-nun Qazax filialının inzibati-funksional idarəetmə strukturu aşağıdakı kimidir.

BDU Qazax filialının Direktoryanı Şurasının 19 may 2023-cü il tarixli iclasında (Protokol № 06) təsdiq edilmişdir.

## BDU-nun Qazax filialının inzibati-funksional idarəetmə strukturu



## 3. SWOT (GZİT) TƏHLİLİ

**Güclü tərəflər ( S – strength):**

- Filial rəhbərliyinin yeniliklərə, müəllim və tələbələrin təşəbbüskarlıq fəaliyyətlərini dəstəkləməyə açıq olması;
- İdarəetmə sistemində ictimai təşkilatların, tələbə təşkilatlarının üzvlərinin təmsil olunması və Əsasnaməyə uyğun olaraq vəzifə və məsuliyyətlər bölgüsünün aparılması;
- "Təhsilin keyfiyyətinin daxili təmin olunması sahəsində siyasət" sənədinin qəbul edilməsi və maraqlı tərəflərin iştirakı ilə Keyfiyyət Komissiyasının yaradılması, maraqlı tərəflərlə müxtəlif istiqamətlər üzrə sorğuların aparılması;
- Fənn proqramları və sillabuslarda təlim nəticələrinin və kompetensiyaların əks olunması;
- Tələbələrin qeydiyyatı, Tələbə-Məzun sistemi, Tələbə Təhsil Krediti, AOİTAS üzrə iş və müraciətlərdə operativliyin təmin olunması;
- Elmi-tədqiqat strategiyası sənədinin mövcud olması, respublika və beynəlxalq səviyyəli konfransların təşkili;
- Filialın kitabxanasının baza universitetin elektron kitabxanasına inteqrasiya edilməsi;
- İnklüziv Təhsil Mərkəzinin yaradılması;
- Beynəlmiləlləşmə siyasətini həyata keçirmək üçün əlverişli regional coğrafi mövqe.

**Zəif cəhətlər ( W – weakness):**

- Elm dərəcəli professor-müəllim heyətinin az olması
- Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların zəif iştirakı;
- Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində az iştirak etməsi;
- Elmi-tədqiqat və innovasiya mərkəzinin olmaması;
- Maddi-texniki bazanın zəif olması;
- İstehsalat-təcrübə bazasının olmaması;
- İT resurslarının kifayət qədər olmaması;
- Elektron sənəd dövriyyəsinin (e-doc) və Elektron Tələbə bazasının olmaması;
- İxtisasartırma (Stajkeçmə) işinin təşkil edilməməsi;
- Filialın strukturunun optimal olmaması və idarəetmədə çətinliklərin yaranması.

**İmkanlar (O – opportunities):**

- Baza universitetinin Elmi Şurasının qərarı əsasında müasir tələblərə cavab verən optimal strukturun formalaşdırılması ilə tədris və digər fəaliyyət istiqamətləri üzrə daha yüksək keyfiyyət əsaslı və nəticəyönümlü fəaliyyət imkanı;
- Yeni kampus tikintisi üçün ərazinin ayrılması;
- Baza universitetində və digər təhsil və tədqiqat mərkəzlərində yeni nəşr olunmuş dərslik və dərs vəsaitlərinin, tədqiqat əsərlərinin Filial kitabxanasına daxil edilməsi və tələbələrin istifadəsinə verilməsi;
- Elektron sənəd dövriyyəsinin (e-doc) və Elektron Tələbə bazasının təmin edilməsi;
- Əlavə həvəsləndirmə tətbiq etməklə, yüksək ixtisaslı kadrların tədris prosesinə cəlb olunması;
- Müəllimlərin Stajkeçmə üçün region universitetlərinə göndərilməsi və Filial daxilində treninqlərə cəlb edilməsi;
- Tədris binasının strukturunda sağlamlıq imkanları məhdud olan şəxslər üçün uyğunlaşdırılmanın aparılması;
- bdu-qazax.edu.az saytı və digər şəbəkələr vasitəsi ilə Filialın fəaliyyəti barədə məlumatların artırılması.

**Təhdidlər ( T- threats) :**

- Filial üzrə fəaliyyətin nəticələrinin maraqlı tərəflərin gözləntiləri ilə uyğunsuzluq təşkil etməsi;
- Dərs yüklərinin bölgüsündə çətinliklərin olması tədrisin keyfiyyətinə mənfi təsiri;
- Beynəlxalq reytinqlərdə yer almama;
- Əmək bazarında tələbin dəyişməsi;
- Uzunmüddətli perspektivdə rəqabətədavamlı tədqiqatların aparılma imkanlarının məhdudluğu;
- Tələbələrin tədqiqatçılıq qabiliyyətinin zəifləməsi;
- Filialın fəaliyyəti barədə məlumatların kifayət qədər olmaması.

# Bakı Dövlət Universiteti Qazax filialının PEST təhlili

## PEST

### (P) Siyasi

- Ali təhsil müəssisələrinin qarşısına qoyulan tələblərin dəyişməsi,
- Təhsil qanunvericiliyində ola biləcək dəyişikliklər,
- Ali təhsillə bağlı siyasətin yenilənməsi,
- Özünü maliyyələşdirmə siyasəti,
- Universitetin kadr potensialına olan tələblərin dəyişilməsi,
- Təhsil sahəsində verilən qərarlar, qəbul olunan qanunlar, qaydalar.

### (E) İqtisadi

- Tələbə sayında dəyişikliklər,
- Ölkədə yeni universitetlərin yaranması,
- Regionda yeni universitetlərin və ya filialların yaranması,
- Alternativ xidmətlərin artması,
- Resursların dəyərinin dəyişməsi: məsələn, əməkhaqqı, təchizat və s.,
- İnflyasiya.

### (S) Sosial

- Cəmiyyətdə ali təhsilə marağın artması,
- Elm adamlarına münasibətin dəyişməsi,
- Demoqrafik dəyişikliklər,
- Universitetin nüfuzu,
- Xarici maraqlı tərəflərin (məzunlar, ailələr, cəmiyyət və s.) gözləntiləri və universitetlərə baxışlarının dəyişməsi,
- Təlim-tədris sistemi və metodlarındakı yeniliklər,
- Regionlarda sosial infrastrukturun səviyyəsi.

### (T) Texnoloji

- İnformasiya texnologiyalarına marağın artması və onlardan geniş istifadə,
- Distant təhsilə tələbatın artması,
- Texniki avadanlıq və proqramların yenilənmə tezliyi,
- Texnoloji yeniliklərə professor-müəllim və texniki heyətin adaptasiyası,
- Təhsildə alternativ tədris formalarına keçid,
- Texniki ixtisaslara maraq və tələbatın artması.

# Bakı Dövlət Universiteti Qazax filialının Porterin 5 güc təhlili



**Bakı Dövlət Universiteti Qazax filialı**
**Maraqlı tərəflərin analizinin təsir/əhəmiyyət**
**Matrisi**

| Təsir/Əhəmiyyət Matrisi | | |
|---|---|---|
| Təsir / Əhəmiyyət | **Zəif** | **Güclü** |
| **Aşağı** | **İzləmək**<br>• Özəl sektor | **Məlumatlandırmaq**<br>• Abituriyentlər<br>• Tələbələrin ailələri |
| **Yüksək** | **Maraqlarını nəzərə almaq, Fəaliyyətə cəlb etmək**<br>• Məzunlar<br>• Digər universitetlər<br>• Xarici universitetlər<br>• İşəgötürənlər<br>• DSMF-nin Qazax rayon Şöbəsi<br>• Qazax-Tovuz Regional Məşğulluq Filialı<br>• Qazax Olimpiya İdman Kompleksi<br>• Qazax-Tovuz Regional Təhsil İdarəsi<br>• "1 İnci" Psixoloji Nitq Mərkəzi<br>• GİKM-in Qazax-Tovuz regional nümayəndəliyi<br>• Orta məktəblər<br>• Körpələr evi-uşaq bağçaları | **Birgə işləmək**<br>• Azərbaycan Respublikasının Nazirlər Kabineti<br>• Elm və Təhsil Nazirliyi<br>• Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi<br>• Təhsildə Keyfiyyət Təminatı Agentliyi<br>• Dövlət İmtahan Mərkəzi<br>• Bakı Dövlət Universiteti (baza universiteti)<br>• BDU Qazax filialının rəhbərliyi<br>• Qazax rayon İcra Hakimiyyəti<br>• Akademik heyət<br>• İnzibati heyət<br>• Fakültə rəhbərliyi<br>• Tələbələr |

# 7. STRATEJİ İNKİŞAF PLANININ İSTİQAMƏTLƏRİ VƏ HƏDƏFLƏRİ

## 1.TƏHSİL İSTİQAMƏTİ

Professor-müəllim heyətinin akademik göstəriciləri və tədrisin keyfiyyəti ali təhsil müəssisəsinin nüfuzunu müəyyən edən əsas amillərdən hesab olunur. Filialdaxili əlverişli akademik mühitin yaradılması və müasir dövrün tələblərinə cavab verən yanaşma və tətbiqlər bu mənada xüsusi əhəmiyyət kəsb edir.

### HƏDƏFLƏRİ:

**Hədəf 1. Tədrisin keyfiyyətinin yüksəldilməsi və fənn proqramlarının təkmilləşdirilməsi**

- ✓ Müasir, interaktiv təlim metodlarının və informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi;
- ✓ Professor-müəllim heyəti üçün məqsədli təlimlərin, xüsusilə informasiya texnologiyaları üzrə bilik və bacarıqların davamlı artırılması;
- ✓ Professor-müəllim heyəti arasında məmnuniyyət sorğusunun keçirilməsi;
- ✓ Müxtəlif proqramlar çərçivəsində xaricdə təhsil almış və ölkə daxilində yetişmiş gənclər hesabına professor-müəllim heyətinin strukturunun gəncləşdirilməsi;
- ✓ Müasir tələblərə cavab verən, ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması və inkişaf etdirilməsi;
- ✓ Laboratoriyalardan, tədris-təcrübənin potensial imkanlarından səmərəli istifadə;
- ✓ Kitabxananın müasir tələblərə uyğun ədəbiyyatlarla təmin edilməsi, tələbələrin kitabxana resurslarından istifadəyə cəlb edilməsi mexanizminin təkmilləşdirilməsi;
- ✓ Dərs vəsaitlərinin (fənn proqramlarının, sillabusların) müasir standartlara uyğunlaşdırılmaqla yenilənməsi
- ✓ İşəgötürənlərin tədris prosesinə və tədris planlarının yenilənməsi işinə cəlb edilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
Müəllim-tələbə nisbəti;
Elmi-pedaqoji və digər göstəriciləri yüksək olan akademik heyətin sayı;
Yenilənmiş fənn proqramlarının sayı;
Keçirilmiş sorğuların sayı.

**Hədəf 2: Əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması**

- ✓ Kadr hazırlığının monitorinqinin aparılması, mövcud vəziyyətin araşdırılması və nəticələrin təhlili;
- ✓ İşəgötürənlər arasında məmnunluq sorğusunun keçirilməsi;
- ✓ Əmək bazarının tələblərini qarşılamayan ixtisasların və proqramların müəyyən edilməsi;
- ✓ Gələcəkdə ehtiyac duyulacaq yeni ixtisasların müəyyən edilməsi;
- ✓ Bazar araşdırması etməklə, qəbul planının əmək bazarının tələblərinə və ehtiyaclarına uyğunlaşdırılması;
- ✓ İxtisaslar üzrə maarifləndirmə və marketinq işinin təşkili;
- ✓ Universitetin profilinə uyğun ixtisaslar üzrə tələbə qəbulunun artırılması;
- ✓ Dərslərin təcrübə yönümlüyünün artırılması.

**Hədəfin qiymətləndirmə meyarı:**
Qəbul planının optimallaşdırılması ilə qəbul olmuş tələbə sayı;
Keçirilmiş sorğuların sayı.

**Hədəf 3: Təcrübə işinin təşkil və effektiv karyera sisteminin yaradılması**

- ✓ Təcrübələrin təşkilinin sistemləşdirilməsi və əmək bazarı ilə əlaqələndirilməsi;
- ✓ Tələbələrin sərt və yumşaq bacarıqlarının artırılması;
- ✓ Məzun bazasının formalaşdırılması və mütəmadi olaraq yenilənməsi;
- ✓ Universitetin məzunlarının (görkəmli şəxslər, iş adamları) tələbələrlə görüşlərinin təşkili ;
- ✓ Məzunlar arasında sorğuların keçirilməsi;
- ✓ Regional əmək yarmarkalarında iştirak etmək və Yerli məşğulluq xidməti orqanları ilə birgə fəaliyyətin həyata keçirilməsi;
- ✓ İşəgötürənlərlə təhsilalanlar arasında görüşlərin təşkili.

**Hədəfin qiymətləndirmə meyarı:**
Məzun olma göstəricisi, faizlə;
İşə qəbul olmuş məzunların sayı.

**Hədəf 4: İnfrastrukturun müasirləşdirilməsi**

- ✓ Maddi-texniki bazanın gücləndirilməsi;
- ✓ Tədris-təcrübə imkanlarının təkmilləşdirilməsi;
- ✓ Tədris korpusunda videomüşahidə sisteminin təkmilləşdirilməsi;

- ✓ İşçilərin iş qrafikinə nəzarət üçün elektron keçid sisteminin qurulması;
- ✓ Fiziki məhdudiyyətli insanların tədris binalarında rahatlıqla hərəkət edə bilmələri üçün infrastrukturun qurulması və inkişaf etdirilməsi;
- ✓ Alternativ maliyyə mənbələrinin müəyyənləşdirilməsi və tətbiqi mexanizminin qurulması.

**Hədəfin qiymətləndirmə meyarı:**
Əlavə maliyyə mənbələrindən əldə olunan vəsaitin həcmi.

## TƏHSİL İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2024/25-ci tədris ilindən "Blackboard" elektron təhsil sisteminin bütün tədris prosesində tətbiqinə nail olunması;
2. Riyaziyyat, təbiət elmləri, humanitar elmlər kimi sahələrdə keyfiyyətin yüksəldilməsinə və əmək bazarının tələblərinə xüsusi diqqət ayırmaqla bakalavriat səviyyəsinə ildə 500 nəfərdən az olmayaraq tələbə qəbulunun davamlılığına nail olunması;
3. 2030-cu ilədək magistr hazırlığının keyfiyyətini yüksəltməklə magistratura pilləsi üzrə ixtisaslaşmaların sayının artırılması və tələbə qəbulunun ildə 50 nəfərədək yüksəldilməsinə nail olunması.

## ELMİ TƏDQİQATLAR İSTİQAMƏTİ

Elm və təhsil müəssisəsi kimi Filialın inkişafının əsas istiqaməti olan səmərəli elmi fəaliyyətin təşkili professor-müəllim heyəti və tədqiqatçıların bilik, baqarıq və tədqiqatçılıq səriştəsinə əsaslanır. Bu baxımdan, Filialda akademik heyətin, habelə tələbə və magistrantların inkişafına təkan verən ən yüksək səviyyəli elmi mühit və tədqiqatların aparılmasına şərait yaratmaq elmi tədqiqatlar istiqamətinin əsasını təşkil edir.

**Hədəf 1: Tədqiqat üçün yaradıcı, təşəbbüskar və müasir tələblərə cavab verən elmi mühitin formalaşdırılması**

- ✓ Elmi-tədqiqat strategiyasına yenidən baxılması;
- ✓ Təbiət, sosial və humanitar sahələrin prioritetləşdirilməsi;
- ✓ Elm Komissiyasının yaradılması və istiqamətlər üzrə tədqiqat işinin koordinasiya edilməsi;
- ✓ Tədqiqat işlərinin nəticələrinin tətbiqi və kommersiyalaşdırılmasına dəstəyin təmin edilməsi;
- ✓ Filial əməkdaşlarının doktorantura proqramlarında iştiraka təşviq edilməsi, istiqamətləndirilməsi və stimullaşdırəlması mexanizminin yaradılması;
- ✓ Magistrlik Dissertasiya işlərinin mövzularının elmin aktual problemlərinə adekvatlığının təmin edilməsi;
- ✓ Dissertasiyaların plagiat yoxlamasından keçirilməsi mexanizminin qurulması;
- ✓ Tədqiqat işlərinin nəticələrinin yüksək impakt faktorlu jurnallarda nəşrinin təşviq edilməsi və stimullaşdırıcı sənədin hazırlanması.

**Hədəfin qiymətləndirmə meyarı:**
Beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda (Web of Science, SCOPUS) nəşr olunan məqalələrin sayı;
Tədqiqata cəlb edilmiş gənclərin (tələbə və magistrantların) sayı.

**Hədəf 2: Elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması üçün İnfrastruktur və maliyyə imkanlarının genişləndirilməsi**

- ✓ Elmi-tədqiqat işlərinin yerinə yetirilməsində universitetin maddi-texniki bazasının potensial imkanlarından istifadənin gücləndirilməsi;
- ✓ Kitabxananın fəaliyyətinin modernləşdirilməsi, elektron kitabxana şəbəkəsinin, rəqəmsal elm resurslarından istifadənin genişləndirilməsi;
- ✓ Beynəlxalq informasiya resurslarına çıxış imkanlarının təmin edilməsi;

- ✓ Beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda məqalə çapına yardım üçün Tərcümə mərkəzinin yaradılması;
- ✓ Xarici jurnallarda məqalə çapının təşviqi və Filialda daxili qrant layihələrinin tətbiqi üçün fondunun yaradılması.

**Hədəfin qiymətləndirmə meyarı:**
Elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması üçün ayrılmış vəsaitin həcmi.

**Hədəf 3: Elmi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi**

- ✓ Elmi-tədqiqatlar istiqamətində beynəlxalq əlaqələrin qurulması və əməkdaşlığın gücləndirilməsi;
- ✓ Türkiyənin nüfuzlu universitetləri ilə birgə beynəlxalq tədqiqat layihələrinin işlənməsi;
- ✓ Beynəlxalq qrant layihələrində iştirak üçün fəaliyyətin təmin edilməsi;
- ✓ Tədqiqatçıların beynəlxalq mübadilə proqramlarında iştirakının təmin edilməsi

**Hədəfin qiymətləndirmə meyarı:**
Elmi-tədqiqatlar istiqamətində əməkdaşlığa nail olunmuş elm və təhsil müəssisələrinin sayı.

## ELMİ-TƏDQİQAT İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. Müasir elmi-tədqiqat mühitinin formalaşdırılması üçün insan kapitalının inkişafına və maddi-texniki bazanın təkmilləşdirilməsinə davamlı olaraq kapital qoyuluşunun təmin edilməsi
2. Elmi-tədqiqatlar istoiqamətində səmərəliliyin yüksəldilməsinə nail olunması üçün tədqiqat infrastrukturunun gücləndirilməsi.

## 3. İNNOVASİYALAR İSTİQAMƏTİ

Bu gün ölkənin sosial-iqtisadi inkişaf siyasətinin təmin edilməsi istiqamətində elmi nailiyyətlərə söykənən innovasiyalara artan marağını nəzərə alsaq, innovasiya strategiyasının işlənilməsi və həyata keçirilməsi prosesində müxtəlif tərəfdaşlarla yaradıcı və çevik əməkdaşlığa xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də Filial təhsildə və elmdə dayanıqlı inkişafa və transformasiyaya nail olmaq üçün yeni nəsil alimlərdə və novatorlarda zəruri bacarıqları, nüfuz və düşüncə tərzini formalaşdıran mühit yaratmalıdır.

**HƏDƏFLƏRİ:**

**Hədəf 1: Elektron idarəetmə sisteminin qurulması və təhsil mühitinin rəqəmsallaşdırılması**

- ✓ Elektron idarəetmə sisteminin qurulması üzrə işlərin aparılması;
- ✓ Elektron sənəd dövriyyəsinin yaradılması;
- ✓ Elektron arxiv proqramının yaradılması;
- ✓ Kitabxanada elektron kataloqun yaradılması;
- ✓ Tədrisin və tələbə müraciətlərinin elektronlaşması;
- ✓ Müəllimlər və tələbələrin korporativ elektron poçt ünvanları ilə təmin edilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
Tətbiq olunmuş elektron sistem və proqramların sayı.

**Hədəf 2: Müasir informasiya texnologiyalarını tətbiq etməklə Filialın əməkdaş və tələbələrinin bu sahə üzrə bilik və bacarıqlarının artırılması, daha səmərəli çalışması, tədqiqat aparması və təhsil almasına şərait yaratmaq**

- ✓ Yeni informasiya texnologiyalarının tətbiqi ilə rəqəmsal infrastrukturun müasirləşdirilməsi;
- ✓ Tədris, elmi-tədqiqat və idarəetmə prosesində istifadə üşün müasir kompüter avadanlıqları və texnoloji vasitələrin əldə olunması;
- ✓ Filialda təhsil səviyyəsinin yüksəldilməsi məqsədi ilə akademik heyət və əməkdaşların İKT və digər müasir təlim metodlarından istifadə bacarıqlarının yüksəldilməsi;
- ✓ Təqdim edilən elektron xidmətlərin daxili və kənar sistemlərlə inteqrasiyasının təmin edilməsi;

- ✓ İnnovativ və rəqəmsal həll formalarını tətbiq etməklə, tədris, elmi-tədqiqat və idarəçilik proseslərinin təkmilləşdirilməsi;
- ✓ Təhsilalanlar, professor-müəllim heyəti və inzibati heyət arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi yolu ilə tədris və tədqiqat yönümlü fəaliyyətin səmərəliliyinin yüksəldilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
İKT və digər müasir təlim metodlarından istifadə bacarıqlarının yüksəldilməsi üzrə keçirilmiş təlimlərin sayı;
İKT və digər müasir təlim metodlarından istifadə bacarıqlarının yüksəldilməsi üzrə keçirilmiş təlimlərdə iştirak etmiş əməkdaşların sayı;

**Hədəf 3: İnformasiya resurslarının idarə edilməsi**

- ✓ İdarəetmənin İnformasiya Sisteminin qurulması;
- ✓ Göstərilən elektron xidmətlərin təhlükəsizliyi və keyfiyyətinin yüksəldilməsi;
- ✓ Online xidmətlərin təşkili və pulsuz Wi-fi sahələrinin yaradılması;
- ✓ "Scopus", "Ebsco" kimi elmi bazalara çıxışın təmin edilməsi;
- ✓ Təqdim edilən elektron xidmətlərin daxili və kənar sistemlərlə inteqrasiyasının təmin edilməsi;
- ✓ Strukturlararası informasiya mübadiləsi prosesinin təkmilləşdirilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**

## İNNOVASİYALAR İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. Müasir informasiya texnologiyalarının tətbiqi sahəsunun genişləndirilməsi;
2. 2024-2025-ci ildə Filialda yeni elektron tələbə məlumat bazasının, elektron sənəd dövriyyəsi və təhlükəsizlik sistemlərinin hazırlanması və tətbiqi.

## 4. BEYNƏLMİLƏLLƏŞMƏ İSTİQAMƏTİ

**Hədəf 1: Beynəlxalq əlaqələrin genişləndirilməsi**

- ✓ Filial üzrə Beynəlmiləlləşmə sənədinin hazırlanması;
- ✓ Beynəlmiləlləşmə siyasəti üzrə Komissiyanın yaradılması və bu istiqamətdə fəaliyyətin koordinasiya edilməsi;
- ✓ Beynəlxalq təhsil mərkəzləri ilə səmərəli əlaqələrin qurulması;
- ✓ Beynəlxalq tərəfdaşlarla əlaqələrin səmərəliliyinin artırılması;
- ✓ Ərzincan Binali Yıldırım Universiteti ilə əməkdaşlıq üzrə Memorandumun imzalanması;
- ✓ Müəllimlərin və tədqiqatçıların beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakını təmin edən proqramların həyata keçirilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
İmzalanmış əməkdaşlıq müqavilələrinin sayı.

**Hədəf 2: Beynəlxalq mübadilə proqramlarında iştirak**

- ✓ Filalda xarici tələbələrin sayının artırılması prosesinin təkmilləşdirilməsi;
- ✓ Əcnəbi tələbələrin qəbulu zamanı qəbul komissiyasının çevik fəaliyyətinin qurulması;
- ✓ Beynəlxalq Mübadilə proqramları üzrə göndərilmiş və cəlb edilmiş tələbələrin sayının davamlı şəkildə artırılması;
- ✓ Beynəlxalq Mübadilə proqramları üzrə göndərilmiş və digər universitetlərdən cəlb edilmiş müəllimlərin sayının davamlı şəkildə artırılması;

**Hədəfin qiymətləndirmə meyarı:**
Beynəlxalq proqramlara cəlb olunan tələbə və müəllimlərin sayı;
Filialda təhsil alan əcnəbi tələbələrin sayı.

**Hədəf 3: Reytinq üzrə işlərin icrası və Beynəlxalq rəqabətliliyin artırılması**

- ✓ Hədəf ölkələrdə BDU Qazax filialının imicinin yüksəldilməsi istiqamətində tədbirlərin görülməsi;
- ✓ Filialın reytinqinin yüksəldilməsi üçün Reytinq qiymətləndirilmə sisteminin qurulması;
- ✓ Beynəlxalq reytinq siyahısına daxil olmaq üçün tədbirlər planının hazırlanması;
- ✓ "THE" və "QS" Reytinq platformasında Filialın profilinin yaradılması.

**Hədəfin qiymətləndirmə meyarı:**
Filialın Beynəlxalq reytinq platformalarında yaradılmış profillərinin sayı.

## BEYNƏLMİLƏLLƏŞMƏ İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2030-cu ilədək Filialın əməkdaş və tələbələrinin beynəlxalq mübadilə proqramlarında iştirak sayının artırılması;
2. Xarici universitetlərlə (xüsusi ilə Türkiyə universitetləri ilə) əməkdaşlığın qurulması və inkişaf etdirilməsi.

## 4. SOSİALLIQ İSTİQAMƏTİ

**Hədəf 1: İdarəetmənin əməkdaşlar və təhsilalanlar üçün etimad edilən istiqamətdə təkmilləşdirilməsi,** kadr və inkişaf siyasətinin müəyyən olunması

- ✓ Direktoryanı Şuranın fəaliyyətinin təkmilləşdirilməsi;
- ✓ Filialın strukturunun optimallaşdırılması və yenidən qurulması;
- ✓ İşə qəbul mexanizminin təkmilləşdirilməsi və elektronlaşdırılması;
- ✓ Universitetdən məzun olan magistrantların işə cəlb edilməsinin təşviqi;
- ✓ Müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi və təlim ehtiyaclarının müəyyən edilməsi, təlim planlarının hazırlanması və plan üzrə təlimlərin təşkili;
- ✓ Xarici müəllimlərin dərs prosesinə, elmi məsləhətçi və ya mühazirəçi kimi cəlb edilməsi işinin təşkili;
- ✓ Ehtiyat kadrlar bazasının yaradılması (Bakıda olan digər universitetlərdən namizədlər daxil olmaqla) və onlarla işin aparılması;
- ✓ Tyutorlarla işin təkmilləşdirilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
Təşkil olunmuş təlimlərin sayı.

**Hədəf 2: Tələbələrlə işin təşkili**

- ✓ Qrup rəhbərləri ilə işin formalaşdırılması;
- ✓ Təlim-tərbiyə işi üzrə fəaliyyət planının hazırlanması və icrası;
- ✓ İdman və mədəniyyət tədbirlərinin təşkili işinin gücləndirilməsi;
- ✓ Müxtəlif dərnəklərin təşkili və könüllü iştirakçılığın təmini;
- ✓ Müxtəlif debat klublarının yaradılması, sistemli bilik yarışlarının təşkili və könüllü iştirakçılığın təmini;
- ✓ Korporativ gəzintilər və ekskursiyaların təşkili;
- ✓ Tələbələrin (və gənc müəllimlərin) yerli və beynəlxalq ictimai birliklərlə əlaqəsinin qurulması;
- ✓ TGT, TEC, THT-nin fəaliyyətinin koordinasiyalığının təmin edilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
Təşkil olunmuş dərnəklərin sayı;
Təşkil olunmuş idman və mədəniyyət tədbirlərinin sayı.

**Hədəf 3: Sosial məsuliyyət hissinin artırılması və motivasiya**

- ✓ Tələbələrin və müəllimlərin sosial məsuliyyət hissinin artırılması;
- ✓ Tələbələrin Könüllülük proqramlarına cəlb olunması;
- ✓ Valideynlərin universitet və cəmiyyət qarşısındakı sosial məsuliyyətinin artırılması;
- ✓ Müəllimlərin və işçilərin fəaliyyətinin qiymətləndirilməsi və motivasiyası mexanizminin qurulması;
- ✓ Tələbələrin tədrisin keyfiyyəti və müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi prosesinə cəlb edilməsi (sorğuların keçirilməsi).

**Hədəfin qiymətləndirmə meyarı:**
Sorğuların nəticələri.

**Hədəf 4: Təhsilin gənclər arasında təbliği və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi**

- ✓ Filialın PR və marketinq strategiyası çərçivəsində təhsil sahəsində müvafiq araşdırmalar, sorğuların aparılması, beynəlxalq təcrübənin araşdırılması, müasir təhsil dünyasının trendləri əsasında SWOT analizin hazırlanması və addımların müəyyən edilməsi;
- ✓ Sosial mediada fəaliyyətin genişləndirilməsi ilə ictimai nüfuzun artırılması (Facebook, İnstagram, Youtube, Linkedin, Twitterkimi sosial şəbəkələrində universitetin səhifələrinin gündəlik rejimdə yenilənməsi, daha böyük auditoriyanın məlumatlandırılmasında bu şəbəkələrin imkanlarından səmərəli istifadə);
- ✓ Universitetin saytının gündəlik rejimdə yenilənməsi və kontentin ardıcıl olaraq təkmilləşdirilməsi, məlumatlandırma və maarifləndirmə funksiyasının artırılması üçün məzmunun dolğunlaşdırılması;
- ✓ Açıq qapı günlərinin təşkili, orta məktəb şagirdlərinin bu tədbirlərdə iştirakının təmin olunması;
- ✓ Məktəblərdə təlim, seminar və görüşlərin keçirilməsi, şagirdlərə ixtisas seçimində dəstək, yeni ixtisasların tanıdılması, valideyn və abituriyentlərin maarifləndirilməsi.

**Hədəfin qiymətləndirmə meyarı:**
Sosial şəbəkələrdəyerləşdirilmiş Filialın fəaliyyəti barədə informasiyaların sayı;
Orta məktəblərdə keçirilmiş görüşlərin sayı.

## SOSİALLIQ İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

**1.** 2025-ci ilə kimi 300 yerlik Filial yataqxana kompleksinin tikilməsi məsələsi haqqında təkliflərin formalaşdırılması;

**2.** Filial əməkdaşları və tələbələri arasında qarşılıqlı etimad, tolerantlıq, hörmət, xeyirxahlıq və nəzakət mədəniyyətinin təşviqi;

**3.** Filial əməkdaşlarının geniş miqyaslı humanitar-sosial proqramlar və layihələrdə daha fəal iştirak etmələri üçün imkanların yaradılması;

**4.** Ortaq maraq və prinsipləri nəzərə almaqla Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar Təşkilatı vasitəsi ilə tələbələr arasında əlaqələrin gücləndirilməsi, kollektiv fəaliyyətin genişləndirilməsi.